http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №04 (1558) 28 fevral 2013 - cü il Qiyməti 20 qəpik

## Xocalı faciəsi erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir

## Azərbaycan Prezidenti İlham Əliyev faciə qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir



**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətmişlər.**

***Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.***

***Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.***

***Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.***

***Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.***

***Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.***

***Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.***

***Sonra dövlətimizin başçısına abidənin yerləşdiyi parkda və onun ətrafında görülmüş abadlıq və yenidənqurma işləri barədə məlumat verildi.***

# BÖYÜK ELMİ ŞURADA

**Fevralın 25-də Böyük Elmi Şuranın növbəti yığıncağını açan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının 21-ci ildönümünün geniş miqyasda anıldığını, bu məqsədlə ölkəmizdə və xaricdə silsilə tədbirlərin keçirildiyini dedi. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.**

Bundan sonra "Azərbaycan Tibb Universitetində 2012/2013-cü tədris ilinin qış imtahan-məqbul sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" barədə tədris işləri üzrə prorektor, professor Sabir Əliyevin hesabatı dinlənildi.

Ali təhsildə islahatlar proqramı çərçivəsində universitetdə aparılan struktur dəyişiklikləri-xarici əlaqələr şöbəsinin yenidən qurulması, tədris-metodik və innovasiyalar şöbəsinin yenilənməsi, qarşıya qoyulan vəzifələrin ali tibb və əczaçılıq təhsilinin müasir beynəlxalq proqramlara cəlb olunması və innovativ texnologiyaların tətbiq edilməsi məsələlərinə yönəldən prorektor qeyd etdi ki, bu şöbələr istər diplomaqədərki, istərsə diplomdansonrakı tədris proqramlarının təkmilləşdirilməsi ilə məşğul olur və əsas məqsəd semestr ərzində tələbəyə verilən dərslərin sayının azalması və tədris proqramlarının ixtisasdan asılı olaraq differansiyalı tərtib olunmasıdır.

Qış imtahan-məqbul sessiyasının nəticələrini diqqətə çatdıran S.Əliyev bildirdi ki, klassik qaydada imtahan verən tələbələr 6072 (keçən il 8583) halda imtahanda iştirak etmiş, 627-10,3% (keçən il 772-8,9%) halda imtahana gəlməmiş, 304-5% (keçən il 122-1,4%) halda isə imtahana buraxılmamışdır.

Bundan başqa kredit sistemi üzrə 27599 (keçən il 19712) halda tələbələr imtahanda iştirak etmiş, 3781 (keçən il 2916) halda "əla", 8659 (keçən il 7264) halda "çox yaxşı", 7506 (keçən il 5209) halda "yaxşı", 4344 (keçən il 2332) halda "kafi", 1670 (keçən il 981) halda "qənaətbəxş", 377 (keçən il 310) halda "qeyri-məqbul" əldə olunmuş, 560 (keçən il 202) halda tələbə imtahan-



(davamı səh. 3-də)

# Xocalı soyqırımının ildönümü ilə bağlı Azərbaycan Tibb Universiteti və Qazi Universiteti birgə tədbir keçirmişlər

**Azərbaycan Tibb Universiteti və Ankaradakı Qazi Universiteti Qazaxıstanın Əhməd Yasəvi və Qırğızıstanın Manas universitetlərinin də iştirakı ilə Xocalı soyqırımının 21-ci ildönümü ilə bağlı telekörpü vasitəsilə "Xocalı qətliamı: Böyük cinayət" adlı birgə tədbir keçirmişlər. Tədbir İctimai Televiziya və "TRT Avaz" ilə yayımlanmışdır.**





Qazi Universitetinin qarşısında Xocalıda həlak olmuş 613 dinc insanın xatirəsinə ehtiram əlaməti olaraq ağaclarda Türkiyə və Azərbaycan bayraqlarının təsviri olan 613 palıd yarpağı asılmışdır. Tədbir iştirakçıları soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili akademik Əhliman Əmiraslanov öncə Azərbaycanın İctimai və Türkiyənin TRT televiziyasına canlı bağlantıya görə təşəkkürünü bildirdi. Qeyd etdi ki, 200 ildən çox bir müddətdə erməni qəsbkarlarının törətdiyi vəhşiliyin son zirvəsi Xocalı soyqırımıdır. Heç bir günahı olmayan dinc əhalini yalnız türk olduqları üçün qətlə yetirdilər.

Ortaq yayımda Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətindəki fövqəladə və səlahiyyətli səfiri Faiq Bağırov, Türkiyə Cümhuriyyətinin Respublikamızdakı fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alper Coşkun çıxış edərək dünya birliyini Xocalı soyqırımına hüquqi-siyasi qiymət verməyə çağırdılar.

Tədbirdə Qazi Universitetinin rektoru, professor Süleyman Büyükberber, Qazaxıstanın Əhməd Yasəvi Universiteti rektorunun müavini, professor Salih Aynural, Qırğızıstanın Manas Universitetinin rektoru Səbahaddin Balçı və tələbələr XX əsrin ən dəhşətli qətliamlarından biri olan Xocalı soyqırımının bütün türk dünyasının faciəsi olduğunu vurğulamışlar.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov bildirmişdir ki, bu əlamətdar tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın ali təhsil ocaqlarının nümayəndələri birlikdə bütün dünyada Xocalı soyqırımının tanıdılması üçün mühüm çağırış səsləndirmişlər.

Azərbaycan dövlətinin Xocalı soyqırımının tanıdılması sahəsində gördüyü işlərdən bəhs edən Ə.Həsənov demişdir ki, fevralın 25-də Çexiya parlamenti də Xocalı soyqırımını tanımışdır. Bundan başqa, əvvəllər 3 ölkənin - Kolumbiya, Meksika və Pakistanın parlamentləri, habelə ABŞ-ın 7 ştatı Xocalı soyqırımını tanımışdır. Ulu öndərlər Heydər Əliyev və Mustafa Kamal Atatürkün qardaş xalqlarımıza vəsiyyət etdikləri kimi, ölkələrimizin bir-birinə dəstəyi davam edir. Bu gün Türkiyə Prezidenti Abdullah Gül, Azərbaycan Prezidenti İlham Əliyev, Baş nazir Rəcəb Tayyib Ərdoğanın diqqət və qayğısı ilə görülən işlər bunun bariz nümunəsidir. Gənclərimiz sosial şəbəkələr, müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə dünyanın müxtəlif ölkələrindəki həmyaşıdları arasında Xocalı soyqırımının tanıdılması üçün səylərini artırmalıdırlar. Biz, güclünün haqlı olduğu deyil, haqlının güclü olduğu bir dünya qurmalıyıq.

Daha sonra çıxış edən Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov, Milli Məclisin deputatı Qənirə Paşayeva Xocalı soyqırımının tanıdılması, Türkiyə və Azərbaycan dövlətlərinin, qeyri-hökumət təşkilatlarının bu sahədə apardığı işlərdən bəhs etmişlər. Vurğulanmışdır ki, bu gün Azərbaycan qüdrətli iqtisadiyyata və güclü orduya malik olan, beynəlxalq nüfuzu getdikcə artan bir ölkədir.

Sonra tədbir iştirakçıları Qazi Universitetində incəsənət fakültəsinin dekanı, professor Alev Kurunun rəhbərliyi ilə hazırlanmış "Xocalı qətliamı: Böyük cinayət" sənədli filminə baxmışlar.

Tədbirin iştirakçıları Xocalı soyqırımını əks etdirən Funda İyice Tuncelin rəsm sərgisi ilə də tanış olmuşlar.

**M.CAVADOV**

# Xocalının dərdi haray!

## Faciə qurbanlarının xatirəsi qardaş Türkiyədə anıldı

◆ **XX əsrin qanlı faciəsi - Xocalı soyqırımı! İnsanlığa qarşı yönəldilmiş ən qəddar qətliam! 1992 - ci il fevralın 25 - dən 26 - na keçən dəhşətli gecədən 21 il ötür. Həmin gün Xocalı şəhəri yer üzündən silinmiş, əliyalın, müdafiəsiz, dinc əhali kütləvi şəkildə soyqırımına məruz qalmışdır. Bu amansız faciəni törədənlər, onların adı, yeri məlumdur, qırğına məruz qalanların sayı isə ölçüyə, hesaba gələn deyil.**



Nəticədə 613 dinc sakin öldürülmüş, 487 nəfər şikəst edilmiş, 1275 nəfər əsir götürülərək olmazın zülm, işgəncə və təhqirlərə məruz qalmış, 150 nəfər itkin düşmüş, onların taleyi barədə hələ də məlumat yoxdur. Öldürülənlərdən 106 nəfəri qadın, 63 - ü uşaq, 70 - i qocalar olub. 8 ailə bütövlükdə məhv edilib, ölülərin cənazəsi təhqir edilib, kiminin başı kəsilib, kiminin dərisi soyulub... Daha nələr, nələr! Sadalamaqla başa gələn deyil. Танынмыш шаир, публисист Елдар Исмайыл демишкян:

*Nə qocası, nə cavanı seçildi,*
*Qadınların qızıl qanı içildi.*
*Körpələri xəzəl kimi biçildi,*
*Xocalının dərdi haray, ay haray! . .*

Tükürpədici bu dəhşətli faciəni rus ordusunun 366-cı motoatıcı alayının hərbi texnikası, əsgər və zabit heyətinin köməyi ilə antiazərbaycanlı ruhunda zəhərlənmiş millətçi ermənilərin "öndə gedən dəstələri" törətmişlər. Yəqin bu mənzərəni görən, seyr edən sadə və məkrdən uzaq ermənilərin özləri də cinayəti törədənləri bağışlamaz, onların hərəkətini ən ağır sözlərlə yamanlayardılar...

Ancaq atalar demişkən, nahaq qan yerdə qalmaz. Neçə illərdir ki, dünya xalqları, mütərəqqi bəşəriyyət, sülhü və insanlığı əziz tutan millətlər, xalqlar, ölkələr Xocalı qətliamını törədənləri nifrətlə lənətləyir, heç bir qayda-qanun, heç bir məntiq və vicdan tanımadan kütləvi şəkildə insanları qırıb-çatanların haqq divanı qarşısında cavab verəcəyi günü yaxinlaşdığına əminlik ifadə edirlər; il-ildən Xocalı faciəsini soyqırım kimi tanıyan ölkələrin sayı artmaqdadır. Şəhidlərin xatirə gününün yaxınlaşdığına dünyanın hər yerində Xocalı harayı, qatillərin ədalət məhkəməsi qarşısına çıxarılması tələbi yeni - yeni qüvvə ilə səslənir, şəhidlərin xatirəsi anılır, müxtəlif anım tədbirləri keçirilir.

Fevralın 16 - 17-də qardaş Türkiyənin İğdır və Kars şəhərlərində Azərbaycanın millət vəkilləri, yerli parlament deputatları siyasi partiya təmsilçiləri və ictimaiyyət nümayəndələri ilə birlikdə keçirdikləri konfrans Xocalı soyqırımına həsr edilmişdi.

İğdırda təşkil olunmuş tədbirdən əvvəl iştirakçılar şəhidlərin şərəfinə ucaldılmış xatirə - kompleksi ziyarət edib əklil qoydular. Sonra konfrans öz işini şəhər mədəniyyət mərkəzində davam etdirdi. 500 yerlik zal adamlarla dolu idi. Çoxları ayaq üstə dayanaraq çıxışlara maraqla qulaq asırdı...

Azərbaycan Milli Məclisinin üzvləri Qənirə Paşayeva, Aydın Mirzəzadə, İğdır şəhərindən millət vəkili Sinan Oğan, Kayseridən millət vəkili, doktor, professor Yusuf Halacoğlu, İğdır Universitetindən Aslan Türk Ayyıldız və başqaları çıxış edərək Xocalı faciəsini əsil soyqırım kimi qiymətləndirdiklərini bildirdilər.

Konfrans yüksək səviyyədə keçdi. Sonda Qənirə Paşayeva türk dilində təzəcə çapdan çıxmış " Xocalı soyqırımı" kitabını iştirakçılara payladı.

Soyqırım qurbanlarının xatirəsinə həsr olunmuş növbəti konfrans Kars şəhərində keçirildi. Burada da tədbirə maraq gözlənildiyindən qat-qat artıq idi. Geniş zal toplaşanlarla darlıq etdi. Əvvəlcə Türkiyə və Azərbaycanın himnləri səsləndi, Xocalı şəhidlərnin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, onların ruhuna Quran tapşırıldı, Xocalı harayını əks etdirən film nümayiş etdirildi.

Tədbiri siyasi partiyanın yerli numayəndəsi Yavər Özcan giriş nitqi ilə açdı və söz millət vəkili Aydın Mirzəzadəyə verildi. Deputat müstəqillik dövründə Azərbaycanın qazandığı nailiyyətlərə kiçik bir nəzər salaraq ölkəmizin qüdrətindən, ordumuzun gücündən nümunələr gətirdi, sonra soyqırımı üzərində ətraflı dayandı, onun baş vermə səbəblərini, ağır nəticələrni ətrafli izah etdi, əminlik bildirdi ki, Xocalı faciəsinin əsl səbəbkarları, müdhiş cinayəti törədənlər layiqli cəzalarına çatacaqlar.

Türkiyəli millət vəkilləri doktor Sinan Oğan, Yusuf Halacoğlu, Kars bələdiyyəsinin sədri Nevzat Bozkuş, Azərbaycanın Karsdaki baş konsulu Ayxan Süleymanlı çıxışlarında dönə-dönə bildirdilər ki, Xocalı soyqırımı həm də Türkiyənin faciəsidir, insanlığa qarşı törədilmiş ən ağır cinayətdir. Əminik ki, dünya dövlətləri, beynəlxalq ictimaiyyət bu amansız qırğına feal münasibət bildirəcək, tezliklə hüquqi və siyasi qiymət verəcəklər, onu soyqırım kimi tanıyacaqlar.

Konfrans iştirakçılarının böyük marağına səbəb oldu, bir millət, iki dövlətin qardaşlıq, dostluq ideyalarının əyani sübutuna çevrildi.

**Əsgər ƏSGƏROV,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*
**Bakı - İğdır - Kars - Bakı**

# Azərbaycanda gənc həkimlər üçün yeni imkanlar yaradılmışdır

**Fevralın 25-də Azərbaycan Tibb Universitetində "Azərbaycanın gənc həkimlərinin nadir imkanları" mövzusunda tədbir keçirilmişdir.**

Tədbirdə ATU-nun tələbələrinin, rezidentlərin və gənc həkimlərin elmi səviyyəsini daha da artırmaq məqsədi ilə Avropa ölkələrinin aparıcı klinikalarından dəvət olunmuş mütəxəssislərin iştirakı ilə mövzu ətrafında müzakirələr aparılmışdır.



Tədbirdə bildirilmişdir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Avropa ölkələrinin nüfuzlu klinikaları ilə əməkdaşlıq əlaqələri nəzərəçarpacaq dərəcədə genişlənmişdir.

Qeyd olunmuşdur ki, hazırda ölkəmizdə tibb təhsili sisteminə və səhiyyəyə göstərilən dövlət qayğısı sayəsində yeni layihələr həyata keçirilir.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində tibb təhsilinin tədrisinin kredit sisteminə keçidində, diplomdan sonrakı təhsilin rezidentura sistemi ilə aparılmasında, səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsində və yüksək ixtisaslı həkim hazırlığında əsaslı dönüş yaradılmışdır.

Diqqətə çatdırılmışdır ki, ATU-nun stomatoloji, onkoloji, tədris-terapevtik klinikaları beynəlxalq standartlara tam cavab verən ən müasir avadanlıqla təchiz olunmuşdur. Bununla yanaşı, yüksək ixtisaslı tibb mütəxəssislərinin təcrübəsindən, praktik vərdişlərindən, nəzəri biliklərindən yararlanmağa və xarici mütəxəssislərlə fikir mübadiləsi aparılmasına ehtiyac vardır.

Tədbirdə universitetin rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov çıxış edərək demişdir ki, bunları nəzərə alaraq xarici ölkələrin aparıcı tibb müəssisələrində çalışan görkəmli və nüfuzlu mütəxəssislər Azərbaycan Tibb Universitetinə dəvət olunmuşlar və onlar paytaxt Bakının xəstəxanalarında rezidentlərlə bir yerdə çalışırlar.

Rektor vurğulamışdır ki, məqsəd tibbi təhsildə daha uğurlu nəticələr əldə etmək və gələcəyin həkimlərinin elmi səviyyəsini daha da artırmaqdır. Avropalı mütəxəssislər bir il ərzində ATU-nun yuxarı kurs tələbələri, rezidentlər və müəllimlər üçün mühazirələr aparacaqlar.

Məlumat üçün bildirək ki, bu davamlı bir prosesdir. Gələcəkdə də tibbin müxtəlif sahələri üzrə xaricdən nüfuzlu mütəxəssislər dəvət olunacaqdır. Hələlik, altı nəfərin - Almaniyanın Hamburq Universitetinin tanınmış kardioloqu Konstantinos Kiriazis, Şımali Korolina Universitetindən gəlmiş cərrah- ginekoloq Vaşinqton Con, Bruselin Saint- Luc Universitetindən ümumi pediatr Petrolos Andreas, Hollandiyadan diaqnostik radiologiya üzrə alimlər Huibert Vogel və Robert Noordveld, qastroenterologiya üzrə Maastrix universitetindən Onno van Baalen ölkəmizə gəlmişlər.

Bu məqsədlə xarici ölkələrə çoxlu sayda mütəxəssis göndərə bilmədiyimizdən bu üsul hələlik bizim üçün çox faydalıdır. Bu iş böyük vəsait hesabına başa gəldiyi üçün dünyada nüfuz qazanan tanınmış alimləri universitetimizə dəvət etməyimiz daha əlverişlidir. Əməkdaşlarımız bu mütəxəssislərin qabaqcıl təcrübəsini mənimsəməklə yanaşı həm də onların vasitəsilə Avropanın mətbu orqanlarında, tibbi jurnallarda öz məqalələrini də çap etdirə bilərlər. Bir sözlə, bu layihə gənc həkimlərimizin gələcək karyerasında böyük rol oynayar və yeni perspektivlər açə bilər.

Sonra Almaniyanın Hamburq Universitetinin təmsilçisi, kardioloq Konstantinos Kiriazis, Belçikanın Saint-Luc Universitetinin təmsilçisi, pediatr Petropolos Andreas çıxış edərək Azərbaycanda gördükləri işlərdən danışmış və öz təcrübələrini bölüşmüşlər.

Tədbirdə çıxış edən Tədris -Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev bu təcrübələrin klinikada yüksək səviyyədə aparılması üçün hər cür şəraitin olduğunu bildirdi .

**MƏNSUR**

# Xocalı faciəsinin 21-ci ildönümü qeyd olundu

◆ **Fevralın 22-də «Azərbaycan tarixi» kafedrasında Xocalı soyqırımına həsr olunmuş anım mərasimi keçirildi. Azərbaycan dili kafedrasının müdiri, dosent Akif Miriyev tədbiri açaraq dinc əhalinin qətlə yetirilməsini, bir şəhərin yer üzündən silinməsini tarixin ən qanlı səhifəsi adlandırdı. Tarix kafedrasının müdiri, professor Fəxrəddin Məmmədov Xocalı soyqırımı və digər soyqırımlar barədə ətraflı danışdı. O, ermənilərin əsil adlarının "hay" olduğunu tədbir iştirakçılarının nəzərinə çatdıraraq erməni vandalizminin mahiyyətindən bəhs etdi.**






Fotolar Cənnətalı Çingizindir

"Təbib" qəzetinin baş redaktoru, şair-publisist, yazıçı Eldar İsmayıl Xocalı soyqırımını unutmamağın, bu dəhşətli hadisənin indiki və gələcək nəsillərə çatdırılmasının, anım günlərinin ildə bir yol deyil, zaman-zaman keçirilməsinin vacibliyini söylədi, ermənilərin iç üzünü açan, eyni zamanda gənclərimizi qısasa çağıran «Qarabağ dərdi» şeirini oxudu.

Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, iqtisadiyyat və hüququn əsasları kafedrasının müdiri, dosent Yavər Vəliyev, Azərbaycan dili kafedrasının dosenti İsmət Ağayeva və 323-cü qrup tələbəsi Aida Əkbərli ürək sözlərini deyərək Xocalı soyqırımında həlak olanların anım gününün keçirilməsinin gələcək nəsillər üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğuladılar, günahsız qurbanlara və bütün Şəhidlərə ulu Tanrıdan rəhmət dilədilər.

Tədbirdə çıxış edən Sara Göyçəli və Aygün Akifqızı Xocalıya həsr olunmuş şeirlərini oxudular.

**Qəmər ƏLİQIZI**

# Xocalı Soyqırımı unudulmadı və unudulmayacaq

**◆ 25 fevral, 2013-cü il tarixində Türkiyə Cümhuriyyətinin Samsun şəhərində, Ondokuz Mayıs Universitetində Xocalı soyqırımını anma tədbiri keçirilmişdir.**

OMU-nun Tibb fakültəsinin 5-ci kurs tələbəsi Elvina Nəsirova "Azərbaycan Xalqı və Dövləti Xocalı Soyqırımını Heç Bir Zaman Unutmadı və Unutmayacaq" başlığı altdında çıxış edərək tədbiri açmışdır. Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasından professor İlqar Niftalıyev Xocalı Soyqırımı və Azərbaycanın Qarabağ tarixi haqqında geniş məlumat vermiş, tədbirdə iştirak edən tələbələri bilgiləndirmişdir. Anım tədbirində OMU rektorunun müşaviri Bekir Şişman, OMU mühəndislik fakültəsinin əməkdaşı professor Azər Qasımzadə, Azərbaycan kültürü dərnəyi başkanı Fəridə Qasımzadə, OMU pedaqoji fakültəsinin müəllimi yrd.doç.dr Cəlil Nəbiyev, MHP il başkanı Şaban Kılıç, Türk Ocakları başkanı Tuncay Çağlayan, o cümlədən universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.




**Burada təhsil alan azərbaycanlı tələbələrdən Elvina Nəsirova, Mirkamal Sarızadə və Qaşqay Abbaszadənin təşkilatçılığı ilə hazırlanan tədbir Azərbaycanın Dövlət Himni ilə başlayıb.**

**FİDAN BAĞIROVA,**
*ATU-nun Mikrobiologiya və İmmunologiya kafedrasının həkim-rezidenti,*
*Samsun, Türkiyə*

# BÖYÜK ELMİ ŞURADA

(əvvəli səh. 1-də)

da iştirak etməmiş, 702 (keçən il 498) nəfər isə imtahana buraxılmamışdır.

Klassik qaydada aparılan imtahanın nəticələrinə görə 923 (15,2%) halda "əla" (keçən il 14,5%), 2435 (40,1%) halda "yaxşı" (keçən il 41,6%), 1475 (24,3%) halda "kafi" (keçən il 26,1%) və nəhayət 308 (5,1%) halda "qeyri-kafi" (keçən il 7,4%) qeyd edilmişdir.

Rəqəmlərə fikir versək, keçən ilin müvafiq dövrü ilə müqayisədə klassik qaydada imtahan verənlər arasında "əla"ların 0,7% çoxaldığını, akademik borcu qalan tələbələrin 1,4% artdığını görərik. Akademik borcun böyük bir qismini imtahana gəlməyənlər (10,3%) təşkil etmişdir ki, bu da əsasən xarici tələbələrin payına düşür. Kredit sistemi ilə aparılan imtahanlarda isə nəinki yerli tələbələr, hətta xarici tələbələrin böyük əksəriyyəti iştirak etmişlər.

S.Əliyev ilkin mənimsəmənin I, II, III kurslarda keçən ilki kimi yaxşı olduğunu, lakin eyni sözləri bütün kurslarda rast gəlinən keyfiyyət göstəricisi haqqında deməyin mümkün olmadığını vurğuladı.

O, test üsulu ilə kompyuterlərlə aparılan imtahanların kəmiyyət, xüsusən də keyfiyyət göstəricilərinin xeyli yaxşılaşdığını söyləyərək dedi ki, bu üsul öz obyektivliyi, şəffaflığı, ədalətli olması, tələbələr üçün bərabər şəraitin yaradılması, subyektiv təsirlərin aradan qaldırılması, ictimai rəyin müsbət istiqamətdə dəyişməsi ilə fərqlənir.

S.Əliyev çıxışının sonunda kafedra əməkdaşlarının təkrar seçkisi və yeni əməkdaşların işə qəbulu zamanı müəllimin pedaqoji ustalığınının, elmi-tədqiqat işindəki fəaliyyətinin, xarici dil bilməsinin və yəqin ki, yaşının nəzərə alınacağına, universitet kollektivinin gənc nəslin tərbiyəsində və təhsilində əzmlə çalışacağına əminliyini bildirdi.

Kafedra müdirləri Eldar Qasımov, Zakir Qarayev, Nəsib Quliyev, Çinfiz Rəhimov və Qayıbverdi İskəndərov çıxış edərək hesabatı qənaətbəxş qiymətləndirdilər. Onlar kredit sisteminin üstün və çatışmayan cəhətlərindən danışaraq testlərin təkmilləşdirilməsinə dair təkliflərini söylədilər.

Əhliman Əmiraslanov müzakirələrə yekun vuraraq çıxışlarda səslənən fikirlərə və irəli sürülən təkliflərə öz münasibətini bildirdi: "Həmişə demişəm, yenə təkrar edirəm ki, kredit sisteminin tətbiqi, imtahanların kompyüterlə aparılması hələlik ən optimal variantdır. Təbii ki, yeni bir üsulu təcrübəyə tətbiq edəndə ümumi nəticələrə mənfi təsir göstərən amillər də ortaya çıxır. Bu elə sistemdir ki, daim nəsə əlavə edilməlidir. Əvvəllər imtahanlara yalnız açıq testlər salınırdı. Sonra



qapalı testlərin tətbiqi də məsləhət görüldü. İndi də yeni təklifləri nəzərdən keçirməyə hazırıq".

Bəzi kafedralarda əlavə "imtahan düzəldirlər"-deyə narahatlığını dilə gətirən rektor tələbələrin qiymətlərinin bilərəkdən aşağı endirilməsinin və ya əksinə yuxarı qaldırılmasınının yolverilməz olduğunu dedi. Prosesin geriyədönməzliyini, yeni sistemin cəmiyyətdə, xüsusilə tələbələr tərəfindən müsbət qarşılandığını xatırlatdı.

Universitetin akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında dosent Nəsimi Qasımov məlumat verdikdən sonra Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# Erasmus Mundus proqramının ALRAKİS, BACKİS və TEMPO layihələri üzrə seminar keçirilmişdir

**❍ Fevralın 22-də ATU-nun Tədris-Terapevtik Klinikasında Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr şöbəsinin baş mütəxəssisi İlham Abbasovun iştirakı ilə Azərbaycan Tibb Universitetinin müəllim və rezidentləri üçün Erasmus Mundus proqramının ALRAKİS, BACKİS və TEMPO layihələri üzrə seminar keçirilmişdir.**



İ.Abbasov bu layihələr çərçivəsində ali təhsil sahəsində əməkdaşlıq və tələbə mobilliyi proqramı haqqında ətraflı məlumat verilmişdir. Qeyd edək ki, proqramın əsas məqsədi Avropa və qonşu ölkələrdə ali təhsil keyfiyyətini yüksəltmək, universitetlər arasında əməkdaşlığın yaradılmasıdır.

2012-2016-cı illəri əhatə edən layihənin tərəfdaşları Almaniya, Polşa, İspaniya, Estoniya, İtaliya, Niderland, Fransa və Çexiya universitetləridir. Hədəf ölkələr Azərbaycan, Gürcüstan, Ermənistan və Ukraynadır. Ümumilikdə layihə üzrə 256 nəfər müəllim, bakalavr, magistr, fəlsəfə doktorunun mobillliyi nəzərdə tutulub.

Tədbirdə iştirak edən ATU-nun Beynəlxaq Əlaqələr şöbəsinin müdiri, dosent R.Qabulova Təqdim olunan layihələr çərçivəsində tibb və təbiət elmləri üzrə müəllim və tələbə mübadiləsinin də mümkünlüyünü vurğulamış, universitetimizin xarici dil bilən tələbələrini və əməkdaşalrını bu işdə fəal olmağa çağırmışdır. Dosent R.Qabulova çox yaxın gələcəkdə Azərbaycan Tibb Universitetinin də Erasmus Mundus proqramının layihələrinə bilavasitə qoşulacağını söyləmişdir.

**A.KAMRANOĞLU**

# Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların Ukraynada ixtisaslaşmış bərpa mərkəzində reabilitasiyasına başlanacaqdır

**◆ Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların cari ildən Ukraynanın Lvov şəhərindəki beynəlxalq bərpa müalicəsi klinikasında reabilitasiya kursu keçmələri təmin olunacaqdır.**

Bu ilin fevral ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Ukraynada təcrübə səfərində olan bir qrup əməkdaşı ilə həmin klinikanın rəhbərliyi arasında bununla bağlı razılıq əldə olunmuşdur.

ƏƏSMN-in ictimaiyyətlə əlaqələr şöbəsindən AzərTAc-a bildirmişlər ki, səfər zamanı nazirliyin əməkdaşları beynəlxalq bərpa müalicəsi klinikasının iş təcrübəsi, burada aparılan reabilitasiya metodları ilə yaxından tanış olmuşlar.

Tanışlıq zamanı bildirilmişdir ki, indiyədək klinikada dünyanın 60 ölkəsindən, o cümlədən Almaniya, İsveçrə, Fransa, ABŞ-dan, ümumilikdə, 40 mindən çox sağlamlıq imkanları məhdud uşaq reabilitasiya kursu keçmiş və yüksək nəticələr əldə edilmişdir.

# Əsəb hüceyrələrini bərpa etmək mümkün olacaqdır

**◆ Alimlər altsheymer, parkinson xəstəlikləri və onurğa sütunu zədələnmələri ilə bağlı olan bir sıra genlər aşkar etmişlər.**

Həmin genlər ilanbalığında aşkar olunmuşdur. İnsandan fərqli olaraq, ilanbalığı əsəb sistemini bərpa edə bilir. Məsələn, əgər onurğa beyni zədələnirsə, əsəb hüceyrələri bərpa olur və 10-12 həftədən sonra ilanbalığı artıq normal hərəkət edir.

İlanbalığında iri neyronlar mövcuddur ki, bu da onun laboratoriya şəraitində tədqiq olunmasını son dərəcə asanlaşdırır.

Bu yaxınlarda isə alimlər onun geninin şifrələrini açmışlar. Şifrələrin açılmasında ABŞ-ın Miçiqan və Kentukki universitetlərinin 59 mütəxəssisi iştirak etmişdir. Məlum olmuşdur ki, ilanbalığının neyronlarında mielin müdafiə qişası yoxdur. Məhz bu, əsəb impulslarının sürətlə keçməsinə imkan verir.

İnsanda isə zədələnmə zamanı mielin neyronların fəallığına mane olur. Alimlər inanırlar ki, əgər əngəlləyici elementlər aradan qaldırılarsa, kürək zədələnməsi nəticəsində iflicdən əziyyət çəkənləri müalicə etmək mümkün olacaqdır.

Hazırda genetiklər zədələr və regenerasiya zamanı aktivləşən genlərin araşdırılması ilə məşğuldurlar.

# Yeni proqram hazırlanmışdı

**◆ "Raytheon" şirkəti Facebook, Foursquare və Twitter vasitəsilə vətəndaşları izləmək məqsədilə RIOT adlı proqram hazırlamışdır.**

Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutundan AzərTAc-a bildirmişlər ki, hitech.vesti.ru saytının məlumatına görə, sistem hər bir istifadəçi üçün xüsusi qovluq ayırır və sosial şəbəkələrdən əlyetərli məlumatları avtomatik toplayaraq təhlil edir.

Məsələn, sistem istifadəçinin ən çox kiminlə ünsiyyət saxladığını, nə vaxt və hansı ərazilərə baş çəkdiyini izləyir. İstifadəçi GPS-li smartfonla şəkil çəkdiyi zaman RIOT şəkillərin EXIF-başlıqlarını çıxararaq onların harada və nə vaxt çəkildiyi haqqında məlumatları əldə edir. Bundan başqa, yığılmış məlumatlara əsaslanaraq, proqram istifadəçinin sonrakı davranışını proqnozlaşdırmaq imkanına malikdir.

# Şairlə görüş

**◆ Fevralın 19-da Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindəki 141 N-li tam orta məktəbdə tanınmış şair, publisist, Əməkdar jurnalist “Təbib” qəzetinin baş redaktoru Eldar İsmayılla görüş keçirilmişdir.**

Azərbaycanın Dövlət Himni oxunduqdan sonra məktəbin direktoru Fərəh xanım Hüseynova tədbir iştirakçılarını salamladı və bu görüşün mahiyyətini açıqladı. Məktəbin şagirdləri Fərid Hüseynov, Füruzə Bədirli, Nərgiz Bayramova və başqaları şairin “Ağbulaq”, “Mən burda qəribəm, yurd orda qərib”, “Ay durna”, ”Xocalının dərdi haray”, “Bütöv Azərbaycan olmalıyam mən” və sair şeirlərini ustalıqla səsləndirdilər. Dil-ədəbiyyat müəllimi, yazıçı-publisist Şükufə Babayeva E.İsmayıl yaradıcılığının xarakterik xüsusiyyətlərindən, vətənpərvərlik hisslərindən, hadisələrə real, obyektiv münasibətindən, millətsevərliyindən söhbət açdı. Onun əsərlərinin Azərbaycan ədəbiyyatında özünəlayiq mövqe tutmasından nümunələr göstərdi, Eldar İsmayıla həsr etdiyi “Qardaş” şeirini oxudu.





Son günlər ictimaiyyətin nifrətinə tuş gələn üzdəniraq ermənipərəst yazıçı Əkrəm Naibovun nankorluğuna qarşı ilk səsini ucaldanlardan birinin vətəndaş şair kimi Eldar İsmayıl olduğunu deyən şair-publisist Arif Məmmədli onun zəngin yaradıcılığının müxtəlif məziyyətlərini qeyd etdi, ona həsr elədiyi şeirlərini oxudu.

Tədbirdə iştirak edən Surxay Şərifov, Fatma Salahova, Gülnarə Əhmədova, Sara Göyçəli, Aygün Akifqızı, Əlişir Hacıyev və başqaları Eldar İsmayıl yaradıcılığının Azərbaycan xalqı üçün faydalı olduğunu dilə gətirdilər. Onun əsərlərindən misallar söylədilər. Azərbaycan Tibb Universitetinin epidemiologiya kafedrasının müdiri, respublikanın baş epidemioloqu, professor İbadulla Ağayevin çıxışı zalda xüsusi ovqat yaratdı. Göyçə aşıq poeziyasına, Eldar İsmayıl yaradıcılığına, ümumiyyətlə, Azərbaycan ədəbiyyatına mükəmməl bələd olan professor Eldar İsmayılın poeziyasından və ona ithaf olunmuş şeirlərdən nümunələr göstərdi. Bu şeirlər haqqında elmi- bədii fikirlərini söylədi. Şairin “Nə yaşadım Eldar kimi yaşadım”, “Azərbaycandı” şeirlərini xüsusi intonasiya ilə dinləyicilərə çatdırdı.

“Xeyriyyə” ictimai birliyinin sədri Məleykə Göyçəli “Əsrin ziyalısı-ilin ən yaxşı şairi” fəxri diplomunu Eldar İsmayıla təqdim etdi.

Görüşün sonunda məktəb şagirdlərinin şairin əsərləri, həyat və yaradıcılığı barədə ünvanladıqları suallara da aydınlıq gətirən Eldar İsmayıl məktəbin rəhbərliyinə, kollektivinə və tədbirdə iştirak edənlərə minnətdarlığını bildirdi, yeni şeirlərini oxudu.

**Saşa ƏLİYEV,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Hocalının derdi haray, ay haray!

**Eldar İSMAYIL**

... Ulu tanrı, hardan geldi bed haber?
Bed habere yürek dözsün ne qader?
İç dünyamdan bir ah kopdu bu seher,
Hocalının derdi haray, ay haray!

Bu milleti kırdıran kim, kıran kim?
Yigidleri küreyinden vuran kim?
Bilinmirse kim müttehim, kim hakim...
Hocalının derdi haray, ay haray

Dağı-daşı sac içinde kovruldu,
Böyük-kiçik tank altında kırıldı.
Hocalının külü göye sovruldu
Hocalının derdi haray, ay haray!

Ne qocası, ne cavanı seçildi,
Kadınların kızıl kanı içildi.
Körpeleri hezel kimi biçildi,
Hocalının derdi haray, ay haray!

Vücud getdi, qol doğrandı, baş dindi,
Göz ovuldu, göy ağladı, yaş dindi.
Toprak yandı, yurd dağıldı, daş dindi...
Hocalının derdi haray, ay haray!

Zülmü görüb zaman tezden kocaldı,
Hatın kendi bu vahşete mat kaldı.
Öz dərdini unudarak ün saldı-
Hocalının derdi haray, ay haray!

Aman Allah, tufana bak, tufana,
Şeher zülmet, toz karışıb dumana...
Saçın yolub dad eleyir hər ana,
Hocalının derdi haray, ay haray!

Bele sergi sermemişdi bu dünya,
Bele dövran sürmemişdi bu dünya,
Bele qırgın görmemişdi bu dünya
Hocalının derdi haray, ay haray!

Kayasına men başımı koyaram,
Toprağını al kanımla boyaram.
Dünya boyu sızıldayar bu yaram...
Hocalının derdi haray, ay haray!

Hocalınn derdi mana kalk!- deyir.
Düşmanları süngüsüne tak!-deyir.
Kılıncını nare çəkip çak!-deyir.
Hocalının derdi haray, ay haray!

Bu harayda Allah aşkı olmalı!
Akan kanlar kan yaddaşı kalmalı!
Bu kisası ezel- akır almalı!
Hocalının dərdi haray, ay haray!
Yigidlərin mərdi haray, ay haray!

26 Şubat 1992

*Ermeni şerefsizlerinin kardeşlerimize yaptıklarını UNUTMA !*



«Xocalı faciəsi» müəllif mərhum əməkdar rəssam, Cabbar Quliyev

---

ATU-nun hazırlıq şöbəsinin dinləyicisi Mosa Ahmed oğlu Al Buhisinin adına verilmiş dinləyici bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə profilaktika fakültəsinin II kurs, $139^{b}$ qrup tələbəsi Cəfərli Məleykə Qafqaz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır

Əczaçılıq fakültəsinin I kurs, $801^{a}$ qrup tələbəsi Abdullayev Tural Mahir oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır

Hərbi tibb fakültəsinin III kurs, $1123^{b}$ qrup tələbəsi Yolçuyev Vüsal Əlövsət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə profilaktika fakültəsinin I kurs, $104^{b}$ qrup tələbəsi Əmiraslanlı İlahə Əhməd qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



***Sevimli Şahvələdi 2 yaşının tamam olması münasibətilə babaları, nənələri, bibisi, dayısı və bütün doğmaları səmimi qəlbdən təbrik edir, xoşbəxt böyüməsini arzulayırlar!***

***Babasının adaşı,***
***Tamamdı iki yaşı.***
***Sənə verilən adı***
***Hər vaxt şərəflə daşı!***

## Àëëàù ðÿùìÿò åëÿñèí!

Eldar İsmayıl və “Təbib” qəzetinin kollektivi I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramova atası

**Yusif Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Eldar İsmayıl və “Təbib” qəzetinin kollektivi “Virtual” test mərkəzinin rəhbəri, dosent Şahin Bayramova əmisi

**Yusif Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Iqtisadiyyat və hüququn əsasları və Azərbaycan tarixi kafedralarının əməkdaşları Əsaslı kitabxananın əməkdaşı

**Məhərrəm Bəşirovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Iqtisadiyyat və hüququn əsasları və Azərbaycan tarixi kafedralarının əməkdaşları əczaçılıq kimyası kafedrasının dosenti Cəmilə Yusifovaya atası

**Yusif Yusifovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın professoru İlham Şahmuradova əmisi

**Məhəmməd Xudaverdiyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kliniki Tibbi Mərkəzin cərrahi reanimasiya söbəsinin kollektivi həmin şöbənin həkimi

**Nəbiyev Çingiz Həbib oğlunun**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

İnsan anatomiyası kafedrasının əməkdaşları kafedranın assistenti Əfqanə xanıma atası

**Kamranın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti Aydın Əliyevə nənəsi

**Bikə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Iqtisadiyyat və hüququn əsasları və Azərbaycan tarixi kafedralarının əməkdaşları neonatologiya kafedrasının dosenti Aynur Poluxovaya xalası

**Elmira xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası kafedrasının əməkdaşları ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Məhərrəm Məhərrəmova anası

**Validə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın assistenti Ramin Həşımova dayısı

**Qərib Nəsibovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası kafedrasının əməkdaşları ETM-in professoru Ramiz Axundova əzizi

**Zərifə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları iş yoldaşları Sima Rzazadəyə bacısı

**Sona Oruc qızı Sadıqovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları iş yoldaşları dosent Xuraman Məhərrəmovaya əzizi

**Leyla xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər, uşaq cərrahlığı, travmatologiya və ortopediya kafedralarının və 1 saylı xəstəxananın I cərrahi şöbəsinin əməkdaşları, I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramova atası

**Yusif Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 992